Orucoğlu Z.İki müharibənin döyüşçüsü // Xalq qəzeti. - 2023. - 14 mart. - № 56. - S. 14.

Ömrünün 36-cı ilində Vətən torpağı uğrunda şəhidlik zirvəsinə ucalan, böyük bir xalqın qürur yerinə çevrilən igid Mirzə Lənkəran rayonunun Gəgiran kəndində anadan olmuşdu. O, halallıqla gün-güzəran keçirən, doğma yurduna bağli nəcib, xeyirxah insanlardan görüb-götürməklə yetkinlik yaşına çatır.

1991-ci ildə el-oba yığışıb Mirzəni ordu sıralarına yola salır. Canından çox sevdiyi Vətəninə ləyaqətlə xidmət edir. Mərdlik, qəhrəmanlıq göstərərək dəfələrlə erməni dığaların Qarabağ torpaqlarını ələ keçirmək niyyətini ürəklərində qoyur. Yurdsevərliyi, Vətən torpağına əsl oğul məhəbbəti, dostluğa sədaqəti Mirzənin xətrini komandirlərin, əsgərlərin yanında həmişə əziz edir. Beləcə, o, hərbi xidmətini nöqsansız, alnıaçıq başa vurur.

Köksündə hədsiz dərəcədə vətənsevər bir ürək çırpınan Mirzə əsgərlikdən sonra halal zəhmətdən yapışır. Özünə yaxşı həyat qurmaqla bərabər, cəmiyyətə layiqli vətəndaş olmağa, insanların işinə yarımağa səy göstərir. Və yaxşı əməlləri onu gözlərdə işığa, baxışlarda sevincə döndərir. Çox keçmir, ürəyində qövr edən düşmənə nifrət hissi Mirzəni yenidən hərbiyə çəkir. 2004-cü ildə Azərbaycan Silahlı Qüv-vələrinin Zığ qəsəbəsində yerləşən “N” saylı hərbi hissəsində müddətdən artıq xidmətə başlayır. Əsas amalı da Vətəninin şərəfini uca tutmaq, mübarizliklə dığalara qalib gəlib Azərbaycanın əzəli torpaqlarını azad etmək olur. Ağdamda, Tərtərdə xidməti zamanı erməni vandalların törətmək istədiyi fa-ciələrinin qarşısını alır. 2016-cı ilin Aprel döyüşlərində isə göstərdiyi hünər, düşmənə vurduğu zərbələr bir daha Mirzənin necə yurdsevər, torpağa bağlı bir oğul olduğunu göstərir. İgid əsgər kimi ölüm-dirim anlarında Vətəni qorumağı da bacarır. Həmişə də halal torpaq naminə son döyüşə atılmaq üçün məqam gözləyir.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin miçmanı Mirzə Axundov 44 gün davam edən, şanlı zəfərimizlə başa çatan Vətən müharibəsində erməni cəlladlardan qisasını ala bilir. Müharibə başlanan andan kamil bir hərbçi kimi döyüşə atılır. Mirzə 30 ilə yaxın düşmən tapdağına dönən ulu yurd yerimiz Qarabağın bir çox yüksəkliklərinin və yaşayış məntəqələrinin alınmasında fədakarlıq göstərir. Düşmənin texnikasını, canlı qüvvəsini məhv edir. Oktyabr ayının 2-də Talış istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olur. Şərəfli ölüm Vətənin qalib şəhidinə milyonların ürəyində əzəmətli abidə ucaldır.

Müqəddəs amalla vətənləşən Mirzə Axundov ölümündən sonra Suqovuşanın, Laçının azadlığına görə və “Vətən uğrunda” medallarına layiq görülüb.